# "Simurq Liseyi"
# Təhsil Kompleksi MMC
# Uşaqların Qorunması və Mühafizəsi Siyasəti

**Məqsəd və Əhatə Dairəsi**

Bu siyasətin məqsədi Simurq Liseyinin uşaqları zərərdən, istismardan və sui-istifadədən qorumaq öhdəliyini vurğulamaqdır. Bu sənəd bütün tərəflər – işçilər, valideynlər və geniş ictimaiyyət arasında ayıqlıq, məsuliyyət və əməkdaşlıq mədəniyyətinin formalaşdırılması və qorunması üçün çərçivə təqdim edir.

Bu siyasət Simurq Liseyində təhsil alan bütün şagirdlərə, həmçinin işçilərə, könüllülərə və məktəblə əlaqəli hər kəsə şamil olunur. O, məktəblə bağlı bütün fəaliyyətləri – məktəbdə və məktəbdən kənarda – əhatə edir ki, uşaqların qorunması və mühafizəsinə vahid yanaşma təmin olunsun.

**Siyasət Bəyanatı**

Simurq Liseyi bütün şagirdlər üçün akademik, sosial və emosional baxımdan inkişaf edə biləcəklri təhlükəsiz və qorunan mühit yaratmaq prinsiplərinə sadiqdir. Bu "Uşaqların Qorunması və Mühafizəsi Siyasəti" bütün şagirdlərin qorunması və rifahını təmin etmək üçün risklərin və narahatlıqların qarşısının alınması, müəyyənləşdirilməsi və onlara cavab verilməsi üzrə aydın qaydalar, prosedurlar və məsuliyyətləri müəyyən edir.

Simurq Liseyi uşaqların qorunması üzrə məsuliyyətini tam şəkildə qəbul edir.

Siyasətimiz bütün məktəb işçilərinə şamil olunur. Siyasətimizin beş əsas elementi var:

- Uşaqlarla işləyəcək əməkdaşların və könüllülərin uşaq təhlükəsizliyi baxımından uyğunluğunu yoxlamaqla şə qəbulun təmin edilməsi.
- Uşaqların qorunması məsələləri üzrə məlumatlılığın artırılması və uşaqlara özlərini təhlükədən qorumaq bacarıqlarının aşılanması.
- İstismar halları və ya şübhə doğuran vəziyyətlərin müəyyənləşdirilməsi və bildirilməsi üçün prosedurların hazırlanması və tətbiqi.
- Müvafiq uşaq qoruma planına əsasən istismara məruz qalmış şagirdlərə dəstək göstərilməsi.
- Uşaqların öyrənə və inkişaf edə biləcəyi təhlükəsiz mühitin yaradılması.

**Uşaqların qorunması bütün məktəb işçilərinin məsuliyyətidir.**
**Buna görə Simurq Liseyi:**

• Uşaqların özlərini təhlükəsiz hiss etdiyi, danışmağa təşviq olunduğu və problemlərinin dinlənildiyi mühit yaradacaq.
• Uşaqlara narahatçılıq hiss etdikləri halda məktəbdə onlara kömək edə biləcək böyüklərin olduğu düşüncəsini aşılamaq.

**Rollar və Məsuliyyətlər**

Uşaqlarla işləyən və ya onlar adından fəaliyyət göstərən bütün böyüklərin onları qorumaq məsuliyyəti var. Bununla belə, məktəbdə və yerli idarəetmə orqanlarında uşaqların qorunması prosedurları üzrə xüsusi məsuliyyət daşıyan əsas şəxslər mövcuddur. Bu vəzifələri icra edən şəxslərin adları bu sənədin titul səhifəsində göstərilib.
Uşaqların qorunması üzrə məsul şəxslərin bu vəzifəni yerinə yetirmək üçün lazımi dəstəyi almasını və onlara bu rolu icra etmək üçün kifayət qədər vaxt ayrılmasını təmin etmək Məktəb Rəhbərliyinin və İdarə Heyətinin məsuliyyətidir.
Məktəb rəhbərliyi Uşaqların Qorunması üzrə Məsul Şəxslərin tələb olunan təlimlərdə iştirakını və hər iki ildən bir bu təlimlərin yenilənməsini təmin edəcək.
Məktəbin broşüründəki bəyanat valideynləri və qəyyumları məktəbin uşaqların qorunması üzrə öhdəlikləri və məsuliyyətləri barədə məlumatlandıracaq. Valideynlər istədikdə məktəbin "Uşaqların Qorunması Siyasəti"nin surətini ala bilərlər.

**İşə Qəbulda uşaq təhlükəsizliyi qaydaları**

İdarə Heyəti və məktəb rəhbərliyi məktəbdə təhlükəsiz işə qəbul proseslərinin həyata keçirilməsinə cavabdehdir, o cümlədən:
• Direktorun, işə qəbul üçün məsul digər işçilərin və İdarə Heyətinin bir üzvünün təhlükəsiz işə qəbul təlimini tamamlamasını təmin etmək.
• Hökumət qaydalarına uyğun olaraq bütün işçilər və daimi könüllülər barədə "Mərkəzləşdirilmiş Qeyd Sistemi"nin saxlanmasını təmin etmək.

**Etos**

Simurq Liseyi məktəbdə elə bir mühitin yaradılmasının vacibliyini qəbul edir ki, uşaqlar özlərini təhlükəsiz hiss etsin və fikirlərinin dinlənəcəyinə inansınlar.
Biz anlayırıq ki, istismara məruz qalan və ya zorakılığa şahid olan uşaqlar adətən aşağı özünəinam hissinə malik olur və öz dəyərlərini formalaşdırmaqda çətinlik çəkirlər. Onlar özlərini köməksiz, alçaldılmış və günahkar hiss edə bilərlər. Məktəb onların həyatında yeganə sabit, təhlükəsiz və proqnozlaşdırıla bilən mühit ola bilər.

**Təhlükəsiz İş Təcrübəsi**

Simurq Liseyi işçilərin başa düşdüyü və razılaşdığı aydın davranış kodeksi (İşçi Bələdçisi / Şagird Bələdçisi) hazırlamışdır. Bu kodeks uşaqlarla işləyərkən işçilərin necə davranmalı olduqları barədə göstərişlər verir.

**Məxfilik**

Bütün əməkdaşlar bilməlidirlər ki, uşaqlarla bağlı heç bir halda "sirr" saxlayacaqlarına söz verə bilməzlər və əgər uşaq zorakılıq barədə məlumat verərsə, bu məlumat mümkün qədər tez **Uşaqların Müdafiəsi üzrə Məsul Şəxslərə** ötürülməlidir. Uşaq məlumat verdikdə ona bu məlumatın kimlərlə paylaşılacağı izah edilməlidir.
Əməkdaşlar uşaqların müdafiəsi ilə bağlı fərdi hallara dair müvafiq məlumatlarla yalnız **"bilməli olduğu qədər"** (need-to-know) prinsipi əsasında tanış ediləcəklər.

**Qeydiyyatın Aparılması**

Uşaqların Qorunması üzrə qeydlər mərkəzləşdirilmiş və təhlükəsiz şəkildə Uşaqların Qorunması üzrə Məsul Şəxslər tərəfindən saxlanılır. İşçilər uşaqların qorunması ilə bağlı hadisələri və məsələləri mümkün qədər tez sənədləşdirməli və bu sənədlər imzalanıb tarixlə təsdiqlənməlidir. Uşaqların qorunması ilə bağlı qeydlər heç bir halda uşağın tədris faylında saxlanılmamalıdır.

**Digər Qurumlarla Əməkdaşlıq**

Məktəblər istintaq aparan qurumlar deyil, buna görə uşaqların qorunması məsələlərin qanunla razılaşdırılmış prosedurlar çərçivəsində həll olunması vacibdir. Bununla belə, məktəblər müraciətdən sonra da prosesdə iştirak etməli və xüsusilə sosial xidmət orqanları ilə güclü əlaqələr qurmalıdır.
Simurq Liseyi çoxşaxəli əməkdaşlığın vacibliyini qəbul edir və işçilərin bütün müvafiq görüşlərdə – o cümlədən işçi iclasları, əsas qruplar və strategiya görüşlərində – iştirak edə bilməsini təmin edəcək.

**İşçi üzvlərinə qarşı ittihamlar**

Simurq Liseyi işçilərin və könüllülərin uşaqlara zərər verə biləcək davranış sərgiləyə biləcəyi ehtimalını qəbul edir və onlara qarşı yönəldilən bütün ittihamları ciddi şəkildə araşdırır. İttihamlara baxılması üzrə lokal prosedurlar başa düşülür və onlara əməl olunur. Bütün işçilər hər hansı bir böyüyün davranışından narahat olduqda kimə müraciət etməli olduqlarını bilirlər.

**Məktəb ərazisindən digər təşkilatların istifadəsi**

Əgər məktəb binasında xidmətlər və ya fəaliyyətlər başqa qurum tərəfindən həyata keçirilirsə, İdarə Heyəti həmin qurumun uşaqların mühafizəsi və qorunması ilə bağlı müvafiq siyasət və

prosedurlara malik olduğuna əmin olacaq (məsələn, qida təchizatı xidmətləri).

**Digər Məktəb Siyasətləri ilə Əlaqə**

Simurq Liseyi qəbul edir ki, məktəbdə hazırlanmış və tətbiq olunan bir çox digər siyasətlər və prosedurlar uşaqların rifahının qorunması və təşviqi ilə bağlı daha geniş çərçivənin bir hissəsidir və bu siyasət aşağıda göstərilən siyasətlərlə bağlantılı şəkildə oxunmalıdır:
- Qısnama və zorakılığa qarşı siyasət
- Sağlamlıq və təhlükəsizlik siyasəti
- İT (İnformasiya Texnologiyaları) siyasəti

**İzləmə və İcra**

Simurq Liseyinin işçiləri bu siyasətin həyata keçirilməsinə, onun icrasının və effektivliyinin təmin edilməsinə nəzarət edəcəklər. Onun aktual və tətbiqedilən olmasını qiymətləndirmək üçün mütəmadi olaraq baxışlar keçiriləcək.

**Baxış və Dəyişikliklər**

Bu siyasət müəllimlər, şagirdlər və valideynlərdən alınan rəy əsasında dövri olaraq nəzərdən keçiriləcək və effektivliyi qiymətləndiriləcək.
Zərurət yarandıqda uyğun düzəlişlər ediləcək.

**"Simurq Liseyi" Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI «SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ» Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC